


علیرضا ذیحق

## عا شیق اصلان ین حیات و یارادیجیلیغي

موعاصیر ساز شاعیرلریمیزدن " عاشیق اصلان "1287 گونش ایلینده " خوي " شهري نین " حمزیان " کندینده آنادان اولوب دور. آتاسي " نجف کیشي " وفامیلي " طالبي " دیر . عاشیق اصلان ین اوستادي رحمتلي" عاشیق اسد " ایدي. او ، اوره گي وطن عشقیله چیرپینان احساسلي شاعیر لریمیزدن دیر. عاشیق اصلان خلق شعري نین موختلیف نوع لرینده طبعینی سیناميش و شعرلر یازمیشدیر. اونون یارادیجیلیغیندا ،

آنا یوردا سونسوز محبت و آنا دیلینه حؤرمت و باغلي لیق آیدین شکیلده گؤرونمك ده دیر. نئچه ایل بوندان قاباق " لندن " فاکولته لري دعوتلیسي اولاراق " لندن "ه گئتمیش و اورادا

آذربایجـان خلـق ادبیـاتي نـین نمونــه لرینــي او جوملــه دن " شـاه اسـماعیل " حاققینـدا بیلـدیقي داسـتانلاري سـاز و سـؤزله بیرلیـك ده تقـدیم ائتمـیش دیـر بـورادا عاشـیق اصـلان یـن یارادیجیلیغیندان بیري جیدّي و دیگري طنز ایكي نمونه نقل ائدیلمیش دیر:

## گول تبریزیم

آذر ائلي جوشار داشار دونیا واركن آزاد یاشار
قارتال كیمي داغلار آشار ائل تبریزیم گول تبریزیم
گل دردیمي بول تبریزیم

گؤزه ل اولار یایین قیشین صفالیدیر داغین داشین
دوشمان آتین دیده ردیشین ائل تبریزیم گول تبریزیم
گل دردیمي بول تبریزیم

آذربایجان بیر واخت اولار ائل دریا تك جوشوب دولار
یاغي لرین رنگي سولار ائل تبریزیم گول تبریزیم
گل دردیمي بول تبریزیم

یاد جانینا اود سالارسان دوشمان لاردان باج آلار سا ن
آزاد اولوب شن قالارسان ائل تبریزیم گول تبریزیم
گل دردیمي بول تبریزیم

" عاشیق اصلان " گل ایمانا صیدقي باغلا او سوبحا نا
ائل یولوندا اؤل مردانا ائل تبریزیم گول تبریزیم
گل دردیمي بول تبریزیم

# بوغاز دردي

بوغاز سني خار اولاسان     بوي آتماميش تئز سولاسا ن
گؤرمه ديم بيرجه دوياسان    اوخشايير سان ماره بوغا ز
چيخسين سنه يا ره بوغاز

يولوم دوشه ركن بازاره     ساليرسان مني آزاره
نفسيم دوشورآلما ناره       گتدين مني جانه بوغاز
چيخسين سنه يا ره بوغا ز

ائده نده ميوه لر نازي       ييه نده وارلي لار غازي
سيزلايير " اصلان " سازي       قارقيش دئيير ناره بوغا ز
چيخسين سنه يا ره بوغا ز

باش اَي مَزديم نامرد يادا           گووه نر ديم ياخشي آدا
آدسانيمي وئردين بادا             سن سن اوزو قاره بوغاز
چيخسين سنه يا ره بوغا ز

بوغاز سني دويورماغا        كول با شيوا سُووورماغا
سولا ساغا قاچديم قاغا*        منت چكديم ياده بوغاز
چيخسين سنه يا ره بوغا ز

---------------------------------------------------

- قاغا = داداش
- بو يازي عاشيق اصلا ن (1287- 1378 ) دونياسيني دَييشمه دن يازيلميشد ير.

Əliriza Zihaq

## "Aşıq Əslan" in həyat və yaradiciliğı

Muasir saz şairlərimizdən Aşıq Əslan 1908-ci ildə Xoy şəhrinin Həmziyan kəndində anadan olubdur.Atasi "Nəcəfkişi" və famili "Talibi" dir.Aşıq Əslanin ustadi rəhmətli Aşiq Asəd idi. O ürəyi vətən eşqilə çırpınan ehsaslı şairlərimizdən dir.Aşıq Əslan xəlq şerinin muxtəlıf nolərində təb ini sınamiş və şerlər yazmışdır.Onun yaradıcılığında, ana yurda sonsuz məhəbbət və ana dilinə h?rmət və bağlılıq aydın şəkildə g?runməkdədir.Neçə il bundan qabaq"Ləndən" fakultələrinin dəvətlisi olaraq Ləndənə getmiş və orada Azərbaycan xəlq ədəbiyyatının numunələrini o cumlədən "Şahismail" haqqında bildiqi dastanlari saz və s?zlə  birlikdə təqdim etmişdir.
Burada Aşıq Əslanın yaradıcılığından biri ciddi və digəri tənz iki numunə nəql edilmişdir:

## Gül Təbrizim

Azər eli coşar daşar Dünya varkən azad yaşar
Qartal kimi dağlar aşar El Təbrizim Gul təbrizim
Gəl dərdimi bul Təbrizim
G?zəl olar yayın qışın Səfalıdır dağın daşın
Düşman Ətin didər dişin El Təbrizim Gul təbrizim
Gəl dərdimi bul Təbrizim
Azərbaycan bir vaxt olar El dərya tək coşub dolar

Yaği lərin rəngı solar            El Təbrizim Gul təbrizim
Gəl dərdimi bul Təbrizim
Yad canına od salarsan            Düşmanlardan bac alarsan
Azad olub şən qalarsan            El Təbrizim Gul təbrizim
Gəl dərdimi bul Təbrizim
Aşıq Əslan gəl imana            Sıdqı bağla osübhana
El yolunda ?l mərdana            El Təbrizim Gul təbrizim
Gəl dərdimi bul Təbrizim

## Boğaz dərdi

Boğaz səni xar olasan            Boy atmamış tez solasan
G?rmədim bircə doyasan            Oxşayırsan marə boğaz
Cıxsın sənə yarə boğaz
Yolum düşərkən bazarə            Salırsan məni azarə
Nəfsim düsür alma narə            Gətdin məni canə boğaz
Cıxsın sənə yarə boğaz
Edəndə meyvə lər nazi            Yiyəndə varlılar ğazi
Sızlayır Əslanın sazi            Qarqış deyir narə boğaz
Cıxsın sənə yarə boğaz
Baş əyməzdim namərd yada            Güvənərdim yaxşı ada
Ad sanımı verdin bada            Sənsən üzü qarə boğaz
Cıxsın sənə yarə boğaz
Boğaz səni doyurmağa            Kül başıva sovurmağa
Sola sağa qaçdım qağa*            Minnət çəkdim yadə boğaz
Cıxsın sənə yarə boğaz

*Qağa = Dadaş

* Bu yazi Aşıq Əslan(1908-1999) dünyasını dəyişmədən •

yazilmişdir.

•

www.zihagh.33ir.com

zihagh@yahoo.cm

This document was created with Win2PDF available at http://www.daneprairie.com.
The unregistered version of Win2PDF is for evaluation or non-commercial use only.